# clopos

Restoranlar və digər pərakəndə bizneslərin idarəetməsini sadələşdirən POS həllər



# Mündəricat


2 Haqqımızda

5 Həllər

10 POS-kassa

16 Loyallıq

18 Arxa ofis idarəetməsi

27 Mərkəzi idarəetmə

28 Clopos Manager tətbiqi

30 QR menyu

31 Mətbəx Ekranı Sistemi

33 CloposPay

34 Müştərilər

36 Texniki dəstək

37 Əlaqə

# HAQQIMIZDA

# Bizim işimiz biznesinizi yüksəltməkdir

Məqsədimiz biznes idarəetməsini bu pizzaya baxarkən iştahanın artması qədər asan və sürətli etməkdir

Artıq 5 ildir ki, POS həllərimiz sayəsində bizneslər idarəetmələrini rahatlaşdıraraq xidmət səviyyələrini yüksəldir. Qısaca desək, bizə biznesinizin inkişafı üçün lazım olan kofein əlavəsi kimi də yanaşa bilərsiniz!



# Fəaliyyətimiz sərhəd tanımır

Sadəcə lokal bir şirkət də deyilik, artıq Türkiyə, Qazaxıstan və Səudiyyə Ərəbistanı kimi ölkələrdə də Clopos həllərindən istifadə edilir




Uğur sirrimiz isə çox bəsitdir: müştərilərimizə daha yaxşı xidmət təklif etmək üçün onları diqqətlə dinləyir, rəylərini yığıb qısa müddətdə yeni funksiyalar yaradırıq

Qısası, istər kiçik bir mağaza, istərsə də çoxfiliallı restoran olsun, Clopos bizneslərin gizli uğur inqrediyentinə çevrilə bilər

| Komanda üzvü | Aktiv müştəri sayı | Yaranma ili | Ölkələr |
|---|---|---|---|
| **50+** | **1200+** | **2018** | **8** |

HƏLLƏR

# Biznes idarəetməsinə yeni nəfəs

Məhsullarımızı inkişaf etdirərkən müştərilərimizi və ehtiyaclarını daim nəzərə alırıq. Bütün həllərimiz:

### Qabaqcıl texnologiyadır

İndi texnologiya zamanıdır. Bizneslər isə ən son texnologiyaya əsaslanan həllərdən istifadə edərək zamanın nəbzini tuta bilir

### Rahat istifadə edilir

Sadə interfeysi sayəsində yeni istifadəçilər belə Clopos sistemindən rahatlıqla istifadə etməyə başlayır

### Cihazlarla uyğunlaşır

Proqramlar bütün platforma və cihazlarda açıldığı üçün biznesi və işləri istənilən yerdən idarə etmək imkanı verir

# Xidmət sahələri

POS və idarəetmə həllərimiz bir çox xidmət sahəsində işlənilə bilər



- Kofeşop
- Pizzaçı
- Fastfud
- Restoran & Kafe
- Gecə klubu & Bar



- Geyim mağazası
- Hədiyyə mağazası
- Kitabçı
- Oyun mərkəzi
- Zərgərlik mağazası

# Bizneslərə yenilik qatan həllərimiz

### POS-kassa

Satış prosesini sürətləndirən müasir POS-kassa proqramı

### Arxa ofis idarəetməsi

Biznesə aid bütün əməliyyatların rahatlıqla idarə edildiyi sistem

### Clopos Manager tətbiqi

Biznes əməliyyatlarına telefondan nəzarət imkanı yaradan tətbiq

### Mətbəx ekranı sistemi

Mətbəxdəki prosesləri digitallaşdırıb sürətləndirən sistem

### QR menyu

QR kod vasitəsilə telefonda açılan və sifariş verilən rəqəmsal menyu

### Mərkəzi idarəetmə

Biznesin bütün filiallarının birdən idarə edilə bildiyi sistem

# Lazımlı bütün funksiyalar bir sistemdə

### Mərkəzi sifariş sistemi

Bütün satış kanalları üzrə sifariş qəbulu və izlənilməsi vahid sistemdə mərkəzləşdirilir

### Hesabatlar & Təhlillər

Avtomatik hazırlanan təhlillər və hesabatlar bizneslərin cari vəziyyəti daha yaxşı anlamasına kömək edir

### Mühasibat & Əmək haqqı

Maliyyəyə nəzarət etmək üçün əlavə proqram təminatına ehtiyac qalmır, sistemimiz bu mərhələdə də bizneslərin yanında olur

### Anbar idarəetməsi

İnventara daimi nəzarət sayəsində tullantı ehtimalı azalır, məhsuldarlıq artır və əməliyyatları sadələşir.

### CRM & Loyallıq proqramı

Müəssisələr müxtəlif proqramlarla qonaqları daimi müştəriyə çevirə bilir və satışları artırır

### İnteqrasiya imkanı

E-kassa operatorları və Wolt kimi xarici aqreqatorlarla inteqrasiya əməliyyatları avtomatlaşdıraraq işləri sürətli və rahat edir

POS-kassa

# Sürətli satış prosesi

Müasir POS-kassa sistemi ilə istər masada, istər yerində, istərsə də çatdırılmada sifarişlər və ödənişlər rahatlıqla qəbul edilir




- Ofisiantlar tətbiq vasitəsilə sifarişləri sürətli daxil edib dəyişdirir, müştəri məlumatlarını görür və hazırlanma statusunu izləyir
- Sifarişləri birbaşa hazırlıq ünvanına göndərərək həm sürəti, həm də dəqiqliyi artırır
- Sifarişin hazırlanması, prioritetləşdirilməsi və tamamlanması kimi bildirişlərlə güclü nəzarət imkanı qazandırır

# İşçilərə tam nəzarət










- Hansı əməkdaşın nə vaxt hansı fəaliyyəti həyata keçirdiyi istənilən vaxt sistem üstündən izlənilir
- Məsul şəxslər hansı əməkdaşın hansı funksionallıqdan istifadə edə biləcəyinə qərar verir, qərarını istədiyi vaxt, istədiyi yerdən dəyişə bilir
- Əməkdaşlar verilən icazələr çərçivəsində müəyyən fəaliyyətləri sürətli və rahat şəkildə həyata keçirir

# Fərdiləşdirilmiş satışlar

Zəngin xüsusiyyətlər satış prosesini fərdiləşdirmək imkanı yaradır







- Kombo menyu yaratma
- İkram etmə
- Modifikator artırma
- Məhsul seçimi
- Anbar qalığına nəzarət
- Məhsul əlavə etmə
- Porsiya seçimi
- Çəki ilə satma
- Məhsul endirimləri
- Barkod və tərəzi dəstəyi

### Fərdi ödəmə üsulları

Müştəri ödənişlərini istənilən üsulla qəbul etmək rahatlığı

### Fərdi satış üsulları

Satışları istənilən satış kanalından həyata keçirmək rahatlığı

# Detallı çeklər və satış hesabatları

- Qəbzləri kimin açdığı və ya nə qədər müddət açıq qaldığı kimi məlumatlarla artıq satış prosesini izləmək daha asandır. Üstəlik, arxivdəki çeklərin hətta oflayn olduqda belə izlənilə bilməsi xüsusiyyəti vacib məlumatların heç vaxt itməməsini təmin edir







- Gün, ay və ya istənilən zaman intervalına uyğun detallı hesabatlar (məsələn, X, Y və s.) sayəsində müəssisələr biznesə aid maliyyə əməliyyatlarını rahatlıqla izləyir

# Sürətə sürət qatan Ofisiant Tətbiqi

Mobil əlavə vasitəsilə ofisiantlar sifarişləri telefondan qəbul edib mətbəxə göndərir, lazım olduqda sürətli şəkildə dəyişir və hazırlanma ilə bağlı müxtəlif bildirişlər alaraq vaxt itkisini minimuma salır




- Əsas restorandan uzaqda olduqda belə sifarişləri qəbul etmək rahatlığı
- Fiziki olaraq yol ölçməyə ehtiyac duymadan sifarişlərin birbaşa mətbəxə göndərilməsi
- Kağız biletlərə və əl ilə sifariş qəbuluna ehtiyacın aradan qaldırılması

## Aqreqatorlarla inteqrasiya

Wolt kimi xarici platformalar vasitəsilə müəssisənizdən edilən sifarişlər birbaşa sisteminizə düşür

Wolt

Bolt Food tezliklə

## E-Kassa ilə inteqrasiya

Satışlarınız E-Kassa operatorlarının məlumat baza sisteminə avtomatik köçürülür

AZ smart NBA TECHNOLOGIES INTERNATIONAL OMNITECH CASPOS

Loyallıq

# Qonaqdan daimi müştəriyə

Müştərilərin biznesə bağlılığını, beləliklə gəlirliliyi artırmaq istəyən müəssisələr üçün daimi müştərilərə xüsusi üstünlüklər təklif edən loyallıq proqramları ideal seçim sayılır







### Müştərilər

Çatdırılma ünvanı, sifariş tarixçəsi kimi məlumatlarla zəngin müştəri profili sayəsində müştərilərə xüsusi üstünlüklər təklif edilə bilir

### Müştəri rəyi

Müştəri məmnuniyyətini artırmaq istəyən bizneslər müştəri rəyi toplayaraq özlərini inkişaf etdirir

## Sadiq müştərilər üçün xüsusi üstünlüklər

- Loyallıq kartı
- Xüsusi endirimlər
- Bonus balans
- Xüsusi kampaniyalar

# Daimi müştərilərə özəl tətbiq

Onlar üçün hazırlanmış xüsusi proqramla daimi müştərilərinizin məmnuniyyətini artırın

- Mükafat, bonus və ya endirimlərin izlənilməsi
- Menyuya asanlıqla baxmaq və sifariş vermək
- Tətbiqdaxili ödəniş etmə imkanı
- Xidmət və ya yeməklərlə bağlı rəy bildirmək



Arxa ofis idarəetməsi

# Hərtərəfli idarəetmə

Evdə, yolda, tətildə… Artıq internetə çıxış olan istənilən yerdən biznes əməliyyatlarını rahatlıqla idarə etmək mümkündür!




- Anbar tənzimləmələri
- Maliyyə hesabatları
- Əmək haqqı sistemi
- Əməkdaşlara nəzarət
- Detallı çeklər
- Məhsul tənzimləmələri

### Ani hesabatlar

Real vaxt rejiminə uyğun olaraq yenilənən detallı hesabatlar

### Mərkəzi idarəetmə

Bütün filialları bir sistem vasitəsilə eyni anda idarə etmək imkanı

# Anbarın anbaan izlənməsi

Anbar ehtiyatındakı məhsulları nəzarət altında saxlayaraq nəyin artıq, nəyin əskik olduğunu rahatlıqla təyin etmək və israfın qarşısını almaq olur




## Ehtiyatların izlənməsi

İnventarın daim nəzarət altında saxlanılması məlumat əsaslı qərarlar verməyi asanlaşdırır

## Hərəkət və hesabatlar

Hərəkətlərə dair hesablatlar inventar üstündə daha rahat nəzarət imkanı yaradır







## Tədarükçülər və əməliyyatlar

Tədarükçülər və əməliyyatların rahat idarəetməsi sayəsində xəta ehtimalı minimuma düşür

# Inventra tətbiqi ilə inventara nəzarət

İnventarın idarəetməsi və izlənilməsini uzaqda olduqda belə əldən buraxmamaq üçün bu tətbiq idealdır. Yalnız barkodlarını skan edərək məhsul əlavə etmək funkstiyası isə prosesi daha da asanlaşdırır












# Maliyyə və Əmək Haqqı sistemi

Maliyyə axınını və əmək haqlarını eyni sistemdən izləyərək bizneslər maliyyə sağlamlığını nəzarət altında saxlayır




## Əməliyyat yaratmaq

Gəlir, xərc və digər maliyyə əməliyyatlarının sistemə asanlıqla əlavə edilməsi

## Əməliyyat siyahısı

Biznesə aid bütün maliyyə əməliyyatlarının detallı icmalı







## Detallı hesabatlar

Pul vəsaitlərinin hərəkəti, mənfəət və zərər kimi maliyyə sisteminə dair məlumatlar

# Xüsusi ehtiyaclara özəl xidmət

## Fərdi ödəmə üsulları

Ödəniş üsulunu müştərilərin istəklərinə uyğun olaraq fərdiləşdirib onları ödəmə rahatlığı ilə təmin etmək mümkündür

| Ad | Hesab | Status |
| --- | --- | --- |
| Nağd | Pul qutusu | ✓ |
| Kart | Kart hesabı | ✓ |
| Bonus | Seyf | ✗ |

| Ad | Ödəniş üsulu | Status |
| --- | --- | --- |
| Yerində | Nağd, kart | ✓ |
| Çatdırılma | Nağd | ✗ |
| Takeaway | Nağd, kart | ✓ |

## Fərdi satış üsulları

Onlayn, telefon vasitəsilə və ya mağazadaxili kimi fərqli sifariş kanallarını bir-birindən fərqləndirmək və hər birinin performansını ayrılıqda izləyə bilmək üçün fərdi satış növləri yaratmaq mümkündür

# Məhsulların idarəedilməsi

## Məhsul tənzimləmələri

Hər məhsula ayrı-ayrılıqda porsiya seçimi, endirim və ya ikram kimi özəlliklər artıraraq müştərilərin məmnuniyyətini artırmaq olar



Pizza Pepperoni

**12₼**

Ölçü: M, Əlavə pendir

Şöbə: Mətbəx

İkram | Porsiya | Endirim

| İnqredient | Brutto | Brutto, kg | Dəyər |
|---|---|---|---|
| İstiot, kg | 0.05 kg | 0,05 kq | 1 ₼ |
| Pendir Holland, kg | 0.5 kg | 0,5 kq | 15 ₼ |
| Kartof, kg | 0.4 kg | 0,4 kq | 0,532 ₼ |
| Tomat, kg | 0.2 kg | 0,2 kq | 1,1111 ₼ |

Toplu seçim | + Əlavə et

Cəm: 1.1500 kq

## Məhsul tərkibi

Hər məhsulda istifadə edilən inqrediyentlərin miqdarını dəqiq qeyd edərək həm düzgün istifadəni sistemləşdirmək, həm də məhsul xərclərini nəzarətdə saxlamaq olar

# Məhsulların fərdiləşdirilməsi

## Tək seçimli modifikator

Müştərilərə eyni məhsulun fərqli növünü təklif etmək üçün ölçü və ya xüsusi tərkib kimi modifikator əlavə etmək mümkündür

**Modifikator** — Margarita Pizza

Tək seçim

| Ad | Şəkil | Xərc | Qiymət | Əsas |
|---|---|---|---|---|
| Kiçik (25 sm) | | 12 ₼ | 15₼ | ◉ |
| Orta (30 sm) | | 14 ₼ | 18₼ | ○ |
| Böyük (35 sm) | | 17 ₼ | 22₼ | ○ |

**Modifikator** — Margarita Pizza

Çox seçim

| İnqrediyentlər | Ad | Şəkil | Çəki | Xərc | Qiymət |
|---|---|---|---|---|---|
| Mozarella, qr | Mozarella | | 100 qr | 2 ₼ | 3 ₼ |
| Zeytun, qr | Zeytun | | 120 qr | 1.5 ₼ | 4 ₼ |

## Çox seçimli modifikator

Müştəri gözləntisini aşmaq istəsəniz, məhsullara əlavələr, sous seçimi və s. kimi çoxsaylı modifikatorlar da əlavə etmək olar

# Əməliyyat məlumatları

Statistik təhlillərə nəzər yetirərək cari rəqəmləri keçmişdəkilərlə müqayisə etmək, biznes performansını izləmək və müvafiq düzəlişlər etmək olar

- Detallı məlumatlarla tendensiyaların anlaşılması və lazımi əlaqələrin qurulması
- Bizneslə bağlı müxtəlif əməliyyatlar barədə məlumat əsaslı qərarların verilməsi
- Edilən dəyişikliklər sayəsində daha yüksək biznes performansı



# İnventarın sürətli yoxlanışı

Sistem vasitəsilə inventarların yoxlanılması prosesi də sadələşdirilir. Bu funksiya ilə məsul işçilər məhsulları fiziki olaraq saya və nəticələri sistemdəki inventar məlumatları ilə müqayisə edə bilərlər. Beləliklə, ehtiyat səviyyələrinin dəqiq qeydini aparmaq, ehtiyatların tükənməsinin və ya həddən artıq yığılmasının qarşısını almaq olur.



Mərkəzi idarəetmə

# Bütün filiallar, bir sistem

Biznesin birdən çox filialı olduqda belə idarəetmə çox rahatdır! Eyni sistemdən bütün filialların fəaliyyətini izləmək, əməliyyatları istər sinxron, istərsə də filiala özəl olaraq tənzimləmək olur

- Bütün filialları eyni anda və ya ayrı-ayrılıqda idarə etmək imkanı
- Françayzinq qaydalarının bütün filiallarda davamlı tətbiqi
- Ortaq CRM və marketinq kampaniyaları
- Mərkəzi menyu, inventar və maliyyə idarəetməsi



Clopos Manager tətbiqi

# İşlər nəzarətsiz qalmır

İş yerindən uzaqlaşdıqda belə nəzarətə tətbiq vasitəsilə davam etmək mümkündür




### Əməliyyatların izlənməsi

Sistem vasitəsilə edilən bütün əməliyyatları istənilən vaxt, istənilən yerdən izləmək olur

### Sadə interfeys

Anlaşılması asan olduğu üçün istifadəçilər tətbiqə sürətlə alışır

### Maliyyə statistikaları

Nağd pul, qonaq sayı, gəlir, xərc və s. kimi əsas maliyyə göstəriciləri haqqında statistikalar təqdim edir

# Biznes üstündə tam nəzarət




## Bildirişlər

Yeni və ya ləğv edilən sifarişlər, aşağı inventar səviyyəsi və ya işçilərin giriş-çıxış saatları kimi müxtəlif fəaliyyətlərdən anında xəbərdar olmaq üçün tətbiq bildirişlərini açmaq kifayətdir

Beləliklə, biznesdə nə baş verdiyindən hətta tətbiqi açmadıqda belə xəbərdar qalmaq olur




## Biznes statistikaları

Yatmaq üzrə ikən, lifti gözləyəndə və ya uçuşa saniyələr qala belə biznes statistikanıza bir nəzər yetirmək üçün tətbiqi açmaq bəs edir

Çünki tətbiqin elə ilk səhifəsində kassadakı nağd pul, gəlir, xərclər, çek və ya qonaq sayı kimi statistikalar yer alır. Beləliklə, sadəcə az vaxt olduqda belə biznes göstəricilərinə nəzarət edilir

QR menyu

# Təmassız və sürətli xidmət

Müştərilər birbaşa öz telefonlarından menyunun rəqəmsal versiyasını açıb, istədiklərini sifariş verdikləri üçün prosesi iki tərəf üçün də səmərələşir

### Vaxta və əməyə qənaət

Sifarişlərin oturduq yerdən həyata keçirilməsi prosesi sürətli və əziyyətsiz edir

### Yüksək satış dərəcəsi

Məhsullara əlavə edilən şəkillər iştahanı, iştaha isə satışları artırır

### Yenilənən menyu

Məhsullarla bağlı dəyişiklik olduğu an yeniliklər e-menyuya rahatlıqla əlavə edilir

**20%**-dək
Satışlarda artım

**30%**-dək
Xərclərdə azalma

**30%**-dək
Daha çox məmnuniyyət

**100%**-dək
Etibarlı proses



Məṭbəx Ekranı Sistemi

# Yüksək mətbəx performansı

Mətbəxdə gedən iş prosesinin rəqəmsallaşması həm sürəti, həm işçi performansını, həm də müştəri məmnuniyyətini artırır




- **Səmərəli**
  İşçilərin fiziki əməyinə olan ehtiyacı azalatmaqla yanaşı, kağız menyulara çıxan xərci aradan qaldırır
- **Dəqiq**
  Aydın və anlaşılan təlimatlar sayəsində sifarişlərin hazırlanma prosesində yarana biləcək xətalar azalır
- **İnformativ**
  Mətbəxlə bağlı hərtərəfli təhlillər performansın rahat izlənilməsinə imkan yaradır

### Daha az xəta

Sifarişlərin anlaşılan olması və birbaşa düzgün hazırlıq ünvanına göndərilməsi ilə xətaların qarşısı alınır

### Daha çox uğur

Xidmət dəqiq və sürətli olduğu üçün müştəri məmnuniyyəti ilə yanaşı biznesin reputasiyası da artır

# Problemsiz və rahat proses

- Ofisiantlar müştərilərdən sifarişləri götürdükləri an birbaşa mətbəx ekranına göndərir







- Mətbəxdəki işçilər ekran sistemindən sifarişləri qəbul edir, sifarişlə bağlı xüsusi qeydləri görür və yeməkləri hazırlamağa başlayır

- Hər iki tərəf sifarişin hazırlanması, prioritetləşdirilməsi, ləğv edilməsi və ya digər yeniləmələr barədə məlumatlı qalaraq həm sürəti artırır, həm də xətaların qarşısını almış olur



ClopsPay

# Təmassız ödəniş prosesi

Müştərilərə öz telefonları vasitəsilə rahat şəkildə ödəniş etmək və bəxşiş göndərmək imkanı yaratmaq üçün ClopsPay aktivləşdirilə bilər

- **Rahatlıq**
  Müştərilər nağd pula və ya karta ehtiyac duymadan, birbaşa öz telefonları ilə asanlıqla ödəniş edir və bəxşiş göndərir
- **Sürət**
  Ödəniş prosesi tez və asan olduğu üçün əməliyyat sürəti artır, müştərilərin gözləmə vaxtı azalır
- **Etibarlılıq**
  Qabaqcıl təhlükəsizlik tədbirləri ilə müştəri məlumatları qorunur və saxtakarlığın qarşısı alınır
- **Yüksək satış**
  İstifadəçi mərkəzli həllər sayəsində müəssisələr daha çox müştəri cəlb etmiş və satışları artırmış olur



Müştərilər

# 1200+
# məmnun müştəri 😍

## Tərəfdaşlar

European Bank for Reconstruction and Development

Wolt

Fintech Factory

INOVATA

ATAŞEHİR BELEDİYESİ Gelecek burada

# Müştərilərimiz haqqımızda nə deyir?

Bütün müştərilərimizin rəyləri bizim üçün dəyərlidir. Onlardan bəzilərini sizinlə bölüşürük



**Türkan Eyyubova**

"Street9bar"ın Təsisçisi

Clopos həm mənim, həm də digər əməkdaşların işini xeyli asanlaşdırıb. O, həm rahat istifadə edilir, həm də əlverişli funksiyalarla zəngindir. Bu isə bizə biznes əməliyyatlarını sürətli şəkildə yerinə yetirmək imkanı qazandırır. Üstəlik, texniki dəstək komandası nə vaxt lazım olsa köməyimizə çatır. Qısası, Clopos sistemini hər kəsə tövsiyə edərdim.



**Sabutay Məmmədzadə**

"Meatadore"un Təsisçisi

Clopos həm üç filialımızda, həm də virtual restoranımızda əvəzsiz köməkçimizdir deyə bilərik. Clopos proqramlarının sürəti və səmərəliliyi xüsusən tədbir zamanlarında əlimizdən tutur. Şirkətlə qurduğumuz əməkdaşlığa görə minnətdarıq və onları müştəri məmnuniyyətini artırmaq istəyən hər biznes sahibinə tövsiyə edirik.



**Səid Məmmədov**

"Gelateca"da İdarə Başçısı

Fəaliyyətə başladığımız ilk tarixdən etibarən Clopos sistemindən istifadə edirik. Hesabatlılıqla yanaşı, data analizi üçün təqdim edilən digər funksiyalar işimizi kifayət qədər asanlaşdırır. Ümid edirik ki, Clopos proqram təminatını inkişaf etdirdikcə, bizim əməkdaşlığımız da daha çox inkişaf edəcək.



**Turxan Əlizadə**

"Xırtaxırt" və "Ferma Art"ın Təsisçisi

Clopos əməkdaşları məhsul inkişafından tutmuş müştəri xidmətlərinə qədər bütün səviyyələrdə peşəkar olduqlarını sübut ediblər. Artıq beş filialımızın hamısında bu POS sistemindən istifadə edirik. Komandanın daim dəstəyə hazır olması və müştəri istəklərini yerinə yetirmələri, məhsulu daim təkmilləşdirmələri şirkətin əsas üstünlüklərindəndir.

Texniki dəstək

# Ehtiyacınız olan hər an yanınızdayıq!

Texniki dəstək komandamız müştərilərdə yaranan sual və ya problemləri sürətlə həll etməyə, funksiyalar haqqında ətraflı məlumat verməyə daim hazırdır



**24/7**

İstədiyiniz an zəng edin

**2 dəqiqə**

Sürətli cavablayaq

Əlaqə

# Birlikdə böyüyək!

İdarəetməni asanlaşdıraraq biznesinizi yüksəltmək istəyirsinizsə, bizimlə əlaqəyə keçin



1-ci Yaşıl Ada, AZ1025, Bakı, Azərbaycan (Baş ofis)

info@clopos.com

+994 12 310 22 66

www.clopos.com

clopos

# TƏŞƏKKÜRLƏR!